UOT 94″16/18″

# XIX ƏSRİN BİRİNCİ YARISINDA ÇEXİYA VƏ POLŞANIN SƏNAYESİNDƏ KAPİTALİZMİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**S.B.HÜSEYNOVA**
***Bakı Dövlət Universiteti***
***huseynovasevda@mail.ru***

*Məqalədə qərbi slavyan ölkələri olan Çexiya və Polşada XIX əsrin birinci yarısında iqtisadiyyatın ümumi durumu və sənayedə kapitalizmin inkişaf xüsusiyyətləri nəzərdən keçirilmişdir. Avstriyanın işğalı altında olan Çexiya və Rusiyanın işğalı altında olan Polşa çarlığının tərkibində olduqları bu böyük dövlətlərin aparıcı sənaye rayonlarına çevrilməsinin əsas səbəbləri araşdırılmış, bu dövrdə Çexiya və Polşa sənayesində baş vermiş çevriliş və fabrik istehsalının artım dinamikası haqqında məlumat verilmişdir.*

**Açar sözlər:** kaptalizm, sənaye çevrilişi, iqtisadiyyat, inkişaf, fabrik mərhələsi

Qərbi slavyan ölkələri tarixində XVIII əsrin sonları XIX əsrin I yarısı feodalizmin böhranı, kapitalist münasibətlərinin inkişafı kimi qiymətləndirilir. Bu tarixi, mürəkkəb proses Polşa və Çexiya ərazisində daha klassik şəkildə getmişdir.

Polşa 3 dəfə bölüşdürülüb, öz müstəqilliyini itirdikdən sonra onun parçalanmış hissələrində iqtisadi-siyasi vəziyyət müxtəlif durumlarda olmuşdur. Belə кi, bu bölüşdürülmələr nəticəsində onun hissələri arasında iqtisadi əlaqələr pozulmuş oldu. Məhz bu sərt və habelə siyasi və milli zülm XVIII əsrin II yarısından meydana gəlməyə başlayan kapitalist istehsalının inkişafını zəiflətmiş oldu. Həm də Polşanın ərazisində dəfələrlə aparılan hərbi əməliyyatlar iqtisadi inkişafa mane olurdu. Polşanın kontinental blokadaya cəlb edilməsi, həmçinin tarix ixracına da zərbə vurdu. Lakin bütün bunlarla yanaşı blokada sənaye istehsalının canlanmasına və aqrar sahədə dəyişikliklərə də səbəb oldu. Hələ 1786-cı ildə Qalisiya kəndliləri, 1907-ci ildə isə Varşava hersoqluğunun kəndliləri şəxsi azadlıq aldılar (4, 40).

Sileziya və Pomeryedə isə aqrar islahat torpaq haqqında 1811-1816-cı illər Prussiya qanunvericiliyi üzrə aparıldı (1, 27). Kəndlilər feodal asılılığından tədricən, mərhələlərlə azad olunmalı idilər. Kəndlilər torpaq mülkiyyətçisinə çevrilirdilər, lakin torpağın üçdə birini mülkədara güzəştə getməli idilər. Bu islahat Poznan vilayətinə də şamil edildi.

Beləliklə, XIX əsrin I rübündə polyak kəndlilərinin əksəriyyəti artıq şəxsən azad idilər ki, bu faktor da Polşa torpaqlarında kapitalist münasibətlərinin inkişafı üçün zəmin yaratdı.

Polşa iqtisadiyyatında kapitalist istehsal münasibətlərinin inkişafa başlaması özünü daha çox sənaye sahəsində biruzə verirdi. Sənayedə kapitalist münasibətlərinin meydana gəlməsindən danışarkən, daha çox onun Rusiya İmperiyasının tərkibinə qatılmış Polşa Çarlığı hissəsinin iqtisadi inkişafını izləmək lazımdır. Belə ki, XIX əsrin I rübünün sonlarından etibarən Polşa Çarlığı həm ərazi və əhalisi, həm də sənayenin inkişafının səviyyəsinə və sürətinə görə Polşanın əsas hissəsini təşkil edirdi. XIX əsrin 20-ci illərindən etibarən burada mahud sənayesində manufakturalar genişlənməyə başladı (2, 58). Pambıq-parça sənayesində də manufaktura sistemi təşəkkül tapmırdı. XIX əsrin 30-cu illərində isə şəkər zavodu, şərabçılıq sənayesi, kənd təsərrüfatı alətləri istehsal edən fabrik və kağız fabrikləri meydana gəldi. XIX əsrin 30-40-cı illərində daha sürətlə inkişaf edən sənaye sahəsi pambıq – parça sənayesi idi (1, 32).

Kapitalist sənayesinin inkişafı gedişində şəhər əhalisinin sayı da artırdı. Həm köhnə mərkəz olan Varşavada, həm də toxuculuq sənayesinin yeni mərkəzi olan Lodzda əhali sürətlə artırdı. Lodz artıq XIX əsrin ortalarında Rusiya imperiyasının toxuculuq sənayesinin ən iri mərkəzlərindən birinə çevrilmişdi. Məhz Polşada birinci olaraq Lodz şəhərində manufakturanı fabrik əvəz etmişdir (9, 74).

Prussiyanın tərkibinə qatılan Polşa torpaqlarından isə (Böyük Polşa, Sileziya, Pomorye, Mazoriya) yalnız Sileziyada sənaye inkişaf etmişdi. Bu bölgə də XIX əsrin I onulliyində sənaye rayonuna çevrildi.

Böyük Polşa torpaqlarında dəmirqayırma sənayesi ilə yanaşı toxuculuq və şüşə sənaye sahələri də inkişaf edirdi. 1788-ci ildə 2 minə yaxın toxucu bir neçə manufakturada birləşərək, istehsalı yüksək səviyyəyə çatdırdılar və məhsul ixraca getməyə başladı.

Bundan başqa əyalətlərdə digər xırda sənaye sahələri: pivəbişirmə və kərpic sənayesi də inkişafa başladı. 1870-ci illərin sonlarında təkcə Böyük Polşada 4200 belə müəssisə yarandı. Mandat Radzivillərin mülkündə belə müəssisələr xüsusilə çoxluq təşkil edirdi. Bu inkişafı izləyən kral hakimiyyəti özünün xüsusi manifakturalar şəbəkəsini yaratmağa cəhd göstərdi. Ancaq bu addım yalnız duzçıxarma sənayesində müvəffəqiyyət qazana bildi. Kral hakimiyyətinin daha əhəmiyyətli tədbiri isə burada ilk aksioner cəmiyyətlərinin– Yunəyirmə manufakturaları Kompaniyası və parça manufakturaları Cəmiyyətinin yaradılması üçün göstərdiyi təşəbbüsün müvəffəqiyyətlə nəticələnməsi oldu (9, 74).

Pozna və Pomeryedə isə sənaye zəif inkişaf etmişdi.

Kapitalist inkişafı cəhətdən ən zəif inkişaf etmiş Polşa torpaqları Avstriyanın işğalı altında olan ərazi – Kiçik Polşa, Qalisiya və Lodomeriya idi. Feodal qaydalarının güclü olması, daxili bazarın darlığı, digər polyak torpaqlarından ayrılmış, iqtisadi cəhətdən əlaqəsiz şəkildə olması, habelə Avstriya və çex

sənayesinin rəqabəti burada – sənayedə və kənd təsərrüfatında kapitalist münasibətlərinin zəif inkişaf etməsinə, ləngiməsinə gətirib çıxarmışdı. Ancaq XVIII əsrin 80-ci illərindən etibarən burada da kapitalist münasibətləri ləng də olsa, inkişafa başladı.

Belə ki, ilk dəfə olaraq Kiçik Polşa torpaqlarında Mandat Malaxovun mülkündə ilk metallurgiya manufakturası fəaliyyətə başladı ki, onun da istehsal qüvvəsi yüksək olmuşdur. XVIII əsrin sonlarında isə artıq Polşada adambaşına dəmir istehsalı 1,8 kq təşkil edirdi. Müqayisə üçün demək lazımdır ki, bu dövrdə qonşu alman knyazlıqlarında bu göstərici 1,2 kq həddində idi (8, 110).

Ümumilikdə Polşa torpaqlarının qabaqcıl Avropa dövlətlərindən geridə qalmasının əsas səbəbi isə onun 3 dəfə bölüşdürülməsi nəticəsində ayrı-ayrı hissələri arasında iqtisadi əlaqələrin olmaması, işğalçı dövlətlərin (Rusiya, Prussiya, Avstriya) milli, siyasi və iqtisadi əsarəti olmuşdur.

Kapitalist münasibətlərinin nisbətən daha daha güclü inkişafı Çexiya ərazisində getmişdir. Bunun əsas səbəbi çex torpaqlarının iqtisadi cəhətdən bölünməmiş, bütöv şəkildə işğalçı dövlətin – Avstriya imperiyasının tərkibinə daxil edilməsi, habelə kəndlilərin şəxsi asılılığının ləğvi və Habsburqların burada keçirdiyi islahatların son nəticədə mütərəqqi xarakter daşıması olmuşdur. Belə ki, Habsburqlar monarxiyasının bu islahatları keçirməkdə əsas məqsədi Çexiya ərazsində mütləqiyyət rejimini möhkəmləndirmək olsa da, nəticədə bu islahatlar çex torpaqlarında kapitalizmin inkişafına şərait yaratmış oldu.

Bu islahatların əsas mahiyyəti nədən ibarət olmuşdur? Belə ki, Avstriya imperatoru II İosif (1780-1790) iqtisadi siyasəti gücləndirərək kəndlilərlə feodalların qarşılıqlı münasibətlərinə dair bir sıra qanunlar verdi: kəndli və mülkədar torpaqlarına qoyulan verginin miqdarı bərabərləşdirildi, işləyib – ödəmə, biyar mükəlləfiyyətlərinin töycüyə keçirilməsini təsbit edən maliyyə qanunu verildi. Habelə kəndlilərin torpaq sahibləri və dövlət tərəfindən istismarının norması da müəyyənləşdirildi; belə ki, kəndlilərdən alınan verginin miqdarı onların təsərrüfatdan götürdükləri ümumi gəlirin 30%-ni aşmamalı idi (3, 92).

1781-ci ildə isə II İosif çex kəndlilərinin şəxsi asılılığının ləğv edilməsi haqqında xüsusi fərman verdi (7, 50). O, həmçinin çex feodallarının səlahiyyətlərini məhdudlaşdırdı və bütün hakimiyyəti mərkəzi idarəçiliyin ixtiyarına verdi. Bundan başqa qanun qarşısında bütün çex vətəndaşlarının bərabərliyinin təmin edilməsi üçün bir sıra tədbirlər görüldü. Maarif sahəsinə də diqqət yetirildi: ilkin təhsil ümumi – hamı üçün elan edildi. Bədən cəzaları ləğv edildi, senzura yumşaldıldı (7, 84).

Ümumilikdə isə II İosifin islahatları proqressiv əhəmiyyət daşıyırdı. Onlar çex torpaqlarında iqtisadi inkişafa səbəb olaraq, kapitalist münasibətlərinin inkişafı yolunda bir çox maneələri aradan qaldırdı. Belə ki, tezliklə çex torpaqlarında iqtisadi yüksəliş başlandı. Bu prosesin baş verməsində həm də II İosif hökumətinin sənaye və ticarətin inkişafına himayədarlıq siyasəti də böyük rol oynamışdır. Avstriya imperiyasının Fransa ilə uzunmüddətli müharibələri toxuculuq məhsullarına və silaha olan tələbatı xeyli artırdığından, əsas diqqət bi-

rinci növbədə sənayenin bu sahələrinin inkişafına yetirilirdi. Həm də kontinental blokada digər qabaqcıl Avropa dövlətlərinin rəqabətini də aradan qaldırdı.

Artıq XVIII əsrin sonlarından sənayenin bir sıra sahələrində texniki yeniliklər tətbiq olunmağa başladı. Məhz bu faktor artıq XIX əsrin əvvəllərində toxuculuq sənayesində sənaye inqilabının başlanmasına səbəb oldu ki, bu da Çexiyada məhsuldar qüvvələrin inkişafına güclü təkan vermiş oldu (7, 89).

Çex torpaqlarında sənaye çevrilişinin I mərhələsi XIX əsrin əvvəllərindən 30-cu illərə qədər olan dövrü əhatə edir. Bu mərhələ üçün buxar enerjisindən istifadə etməyən, sahə maşınların tətbiqi üstünlük təşkil edir. Toxuculuq sənayesində əyirici maşınların sayı 1810-1841-ci illər ərzində 10 dəfədən çox artmışdı. Həmçinin maşınqayırma, dəniz emalı, yeyinti sənayesi və qənd istehsalı sahəsində də ciddi dəyişikliklər başladı. İri müəssisələr 30-cu illərdə bütün maşınların 75 %-ni, fəhlələrin isə 80 %-ni özündə cəmləşdirmişdi. Sənaye inqilabının II mərhələsi isə 30-cu illərdən 1848-ci ilə qədər davam etmişdir. Bu mərhələ buxar maşınlarının geniş tətbiqi ilə xarakterikdir. Bu maşınların istehsalı üzrə birinci emalatxana 1829-cu ildə işə başlamışdır. Daha sonra isə Brno, Praqa və Liberets kimi sənaye mərkəzlərində iri zavodlar açıldı (9, 98). Belə ki, 1846-cı ildə Çexiyada maşınqayırma zavodlarının sayı 22-yə çatdı (7, 96). Bu dövrdə həmçinin dəmiryol şəbəkəsi, həmçinin də kağız istehsalı sənayesi sürətli inkişaf mərhələsinə qədəm qoydu.

Beləliklə, XIX əsrin I yarısında Çexiyada sənaye istehsalı öz inkişafında sıçrayış etdi. Bunun ardınca isə cəmiyyətin sosial strukturunda da dəyişiklik baş verdi: burjuaziya və fəhlə sinfi yaranmış oldu. Belə bir iqtisadi inkişaf isə çex milli intibahının başlanmasına təkan vermiş oldu.

## ƏDƏBİYYAT


1. Барковский А.Н. Экономика Польской Народной Республики. М.: Наука, 280 s.
2. Вопросы первоначального накопления капитала и национального движения в славянских странах. М.: Наука, 1972, 160 s.
3. Ванечек В. История государства и права Чехословакии. М.: Высшая школа, 1981, 340 s.
4. История Польши. II Т. М.: Наука, 1955, 600 s.
5. Краткая история Чехословакии. М.: Просвещение, 1988, 360 s.
6. Курбатов В. Тайные маршруты славян. М.: Алгоритм, 2007, 380 s.
7. Лаптева Л.П. История Чехии периода позднего феодализма и раннего нового времени. (1648-1849 гг.) М.: Наука, 1998, 150 s.
8. Польша на путях развития и утверждения капитализма, конец XVIII-60-е гг. XIX в. М.: Высшая школа, 1984, 422 s.
9. Развитие капитализма и национально – освободительное движение в славянских странах. М.: Просвещение, 1970, 355 s.
10. Семёнова М. Мы – славяне. (Популярная энциклопедия) СПб.: Азбука-классика, 2005, 560 s.

# ОСОБЕННОСТИ КАПИТАЛИСТИЧЕСКОГО РАЗВИТИЯ В ПРОМЫШЛЕННОСТИ ЧЕХИИ И ПОЛЬШИ В ПЕРВОЙ ПОЛОВИНЕ X1X ВЕКА

С.Б.ГУСЕЙНОВА

## РЕЗЮМЕ

В статье рассматривается общее экономическое положение Западных славян Чехии и Польши и особенности капиталистического развития промышленности. Исследуются основные причины превращения Чехии, которая находилась в составе Австрии и Польского царства, которая была под властью Российской империи в передовые промышленные районы этих государств. В статье также дается сведение о промышленном перевороте в промышленности Чехии и Польши и повышении производительной динамики в фабриках.

**Ключевые слова:** капитализм, промышленный переворот, экономика, развитие, фабричный период

# DEVELOPMENT FEATURES OF CAPITALISM IN THE INDUSTRY OF THE CZECH REPUBLIC AND POLAND IN THE FIRST HALF OF XIX CENTURY

S.B.HUSEYNOVA

## SUMMARY

The article studies the general situation of the economy and development features of capitalism in the industry of countries of Western Slav-Czech Republic and Poland.

The author analyzes the Czech Republic which was under Austuria’s occupation and Poland which was controlled by Russia as leading economic regions of these states.

**Key words**: capitalism, industry, overturn, economical, development, factory